Mayın 25-dən 31-dək Belçikanın paytaxtı Brüssel şəhərində Avropa Komissiyasının "Peşə təhsili, təlimi (PTT) islahatı strategiyası və Azərbaycanın seçilmiş regionlarında sınaq tətbiqi" layihəsinin tenderi üzrə təkliflərinin qiymətləndirilməsi məqsədilə Qiymətləndirmə Komitəsinin iclası keçirilib. İclasda Təhsil Nazirliyinin Texniki-peşə təhsili şöbəsinin müdiri Namiq Məmmədov ekspert qismində iştirak edib.

Qiymətləndirmə Komitəsi iclasının keçirilməsində əsas məqsəd İsmayıllı rayonunda tikilən Turizm və Otelçilik üzrə Peşə Məktəbinə texniki yardım edən şirkətin müəyyənləşdirilməsi olub.

Qeyd olunan komitənin qərarına əsasən qısa siyahıya düşən 8 konsorsiumdan biri qalib seçilib. Bu təşkilat İsmayıllı Turizm və Otelçilik üzrə Peşə Məktəbinin yaradılmasında, turizm və otelçilik ixtisasları üzrə kurrikulum, dərsliklər və dərs vəsaitlərinin hazırlanması, peşə təhsilinin gələcək inkişaf strategiyasının müəyyənləşdirilməsində və s. iştirak edəcək.

Məlumat üçün bildiririk ki, yaxın 1 ay ərzində Təhsil Nazirliyi ilə həmin təşkilat arasında rəsmi müqavilə imzalanması nəzərdə tutulub.